Səh. 2 Qoçu əsgərin keçisi – Azər Musaoğlu
Səh. 5 İmtahan təbili çalınır – Aytən Fətullayeva
Səh. 5 Həyatımızı idarə edən sosial media – Validə Fətullayeva
Səh. 6 İmtahan son deyil – Hüryət Rəhimova
Səh. 3 Xaricdən görünməyən yaralar – Hacı Bəkiroğlu
Səh. 4 “DÖVLƏT BU ŞAGİRDLƏRƏ 12 İLƏ GÜRCÜ DİLİNİ ÖYRƏDƏ BİLMİR VƏ SONRA DA DEYİR...”
Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN
2023-CÜ İL
№ 011 (182)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## AZƏRBAYCAN-TÜRKİYƏ-GÜRCÜSTAN ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIĞI REGİON ÜÇÜN ÇOX FAYDALIDIR



Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlığı region üçün çox faydalıdır. Bu format regional təhlükəsizliyin gücləndirilməsi və sabitliyin bərqərar olması istiqamətində uğurla fəaliyyət göstərir. Bu fikirlər Gürcüstan hökumətinin 2022-ci il üzrə parlamentə təqdim etdiyi hesabatda əksini tapıb.

Sənəddə deyilir ki, Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı həm də hər üç ölkənin Silahlı Qüvvələri arasında səmərəli əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edir.

“Regional təhlükəsizliyin gücləndirilməsi, ümumi hədəflərə və maraqlara effektiv şəkildə nail olunması məqsədilə Silahlı Qüvvələr arasında yaxın əlaqələr yaratmağı hədəfləyən Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlığı uğurla inkişaf edir”, - deyə hesabatda qeyd olunub.

## GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU 8 MİLYARD DOLLARDAN ÇOXDUR



Maliyyə Nazirliyinin yaydığı məlumata əsasən, Gürcüstanın xarici dövlət borcu cari ilin may ayında 8 milyard 404 milyon 509 min ABŞ dolları təşkil edib. Bu da cari ilin birinci rübü ilə müqayisədə təxminən 200 milyon dollar çox, keçən ilin göstəricisindən xeyli azdır.

Məlumatda bildirilir ki, hazırda dövlət borcunun lari ilə ekvivalenti təqribi olaraq 21 milyard, 287 milyon, 647 min laridir.

Qeyd edək ki, 2022-ci ilin may ayında Gürcüstanın dövlət borcu həmin dövrün məzənnəsi ilə 23 milyard 338 milyon 271 min lari təşkil edib.

Statistik məlumatlara əsasən, Gürcüstana ən çox kredit verən Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və Beynəlxalq İnkişaf Bankıdır.

## BAŞ NAZİR BRÜSSELDƏ Aİ ŞURASININ PREZİDENTİ İLƏ TBİLİSİYƏ TƏQDİM EDİLƏN 12 TÖVSİYƏNİ MÜZAKİRƏ EDİB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişellə görüşüb.

Baş nazir Avropa İttifaqı Şurasının Prezidenti ilə Avropa Komissiyasının namizəd statusu əldə etməsi üçün Tbilisiyə təqdim etdiyi 12 tövsiyənin yerinə yetirilməsi ilə bağlı irəliləyişləri müzakirə ediblər. Bu barədə hökumət administrasiyası məlumat yayıb.

Məlumata əsasən, Brüsseldə baş tutan görüşdə liderlər ölkənin Avropa perspektivinin tanınmasının tarixi qərar olduğunu qeyd edərək, ilin sonunda namizəd statusunun verilməsinin Gürcüstan üçün, ölkədə qütbləşmənin sona çatması üçün kritik əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Məlumatda qeyd olunub ki, tərəflər söhbət zamanı regional təhlükəsizlik mühitinə, Gürcüstanın işğal olunmuş ərazilərindəki mürəkkəb təhlükəsizlik və humanitar vəziyyətə xüsusi diqqət yetiriblər. Həmçinin Gürcüstanın regionda sülh və sabitliyin təmin edilməsində mühüm rolu vurğulanıb.

Baş nazir İrakli Qaribaşvili hazırkı vəziyyətdə sülh və təhlükəsizliyin təşviqi, nəqliyyat, enerji əlaqələrinin dərinləşdirilməsi baxımından Aİ-nin regionda iştirakının vacibliyini vurğulayıb.

“Biz ümid edirik ki, Aİ bu il Gürcüstana namizəd statusu verərək daha bir tarixi qərar qəbul edəcək. Prezident Şarl Mişelə Gürcüstanın Avropa gələcəyinə verdiyi şəxsi dəstəyinə görə minnətdarlıq edirəm”, - deyə İ.Qaribaşvili görüşdən sonra tvitter hesabında paylaşım edib.

## PARLAMENT SƏDRİ: GÜRCÜSTANA Aİ NAMİZƏDİ STATUSU VERİLMƏMƏSİNİN CAVABI BU GÜNƏDƏK AÇIQLANMAYIB



Gürcüstana niyə Avropa İttifaqı (Aİ) namizədi statusu təqdim edilməməsinin cavabı bu günədək açıqlanmayıb. Bunu Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili deyib. O, faktiki olaraq belə bir cavabın mövcud olmadığını bildirib.

Spiker qeyd edib ki, Avropa Komissiyasının yanvar hesabatı göstərib ki, müvafiq qərar ləyaqət əsaslı olsaydı Gürcüstana namizəd statusu verilə bilərdi.

“Biz hansı səbəbdən namizəd statusunun verilmədiyini soruşduqda bir-birindən kəskin fərqlənən cavablar alırıq. Faktiki olaraq bu, göstərir ki, məsələyə obyektiv cavab yoxdur. Bu, müəyyən bir siyasi qərar idi və bu qərarın nəyə əsaslandığını demək çətindir”, - deyə Ş.Papuaşvili bildirib.



# QOÇU ƏSGƏRİN KEÇİSİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Yəqin ki, məşhur "O olmasın, bu olsun" filmindəki keçi ilə bağlı epizod yadınızdadır. Qoçu Əsgərin keçisi bazarda sahibi kimi ağayana gəzir, yetənə yetir, yetməyənə buynuz atır, ürəyi istədiyini, ağzı çatdığını dədə malı kimi yeyib dükan sahiblərini heç quyruğuna da almır. Amma bir gün bu keçinin də qulağını burub mələdən tapılır. Sahibinin qoçuluğundan ilhamlanaraq dükana soxulub kişmişi yeyən keçinin qulağından tutub buran tacir ona adam dilində müraciət edərək deyir: "Keçi, ay keçi, bu ehsan deyil, ay heyvanın biri, deyirəm sənə çıx get". Tacir bu sözləri, bəlkə də, keçinin sahibinə ünvanlayır, yəni a qızım sənə deyirəm, a gəlinim sən eşit. Gəlin eşitdikdə isə bazar qarışır bir-birinə, o boyda camaat bir dılğır keçinin zibilinə düşür, daha doğrusu, keçinin yox, keçinin buynuzlu sahibinin...

Bu yazının qəhrəmanı isə keçi yox, inəkdir, dəqiq desək, inəklərdir. O inəklər ki, şəhərin bütün parklarını (qeyd edim ki, Qardabanidə irili-xırdalı üç istirahət parkı var) Qoçu Əsgərin keçisi kimi ağayana gəzib-dolaşırlar; yeni əkilmiş dekorativ ağacları, kolları yeyirlər; oturacaqlara, işıq dirəklərinə sürtünərək qaşınırlar; daş döşənmiş cığırları, yolları, uşaqlar üçün oyun meydançalarını batırırlar və üstəlik acıq verirlərmiş kimi ağacların kölgəsində uzanıb yedikləri dekorativ kolların, ağacların bahalı qalıqlarını mədələrindən ağızlarına qaytararaq həyasızcasına gövşəyirlər. Elə bil parkda yox zoparkdadırlar. Şəhərin sakinlərinin tez-tez rast gəldiyi bu mənzərəyə biganə qalmayanlar bu həyasız inəkləri parklardan qovmasalar axşama kimi beləcə öz keflərində-damaqlarında olurlar, axşam da durub gedirlər öz tövlələrinə.

Bəlkə də inanmayacaqsınız, amma vallah, billah, mən bu inəkləri 2011-ci ildən görürəm, o vaxt da eynən indiki kimi şəhərin mərkəzində yerləşən, ortasında gürcü və azərbaycanlı dostluğunu simvolizə edən tar və çonquri abidəsi olan susuz fantanın ətrafında beləcə fırlanırdılar. Hətta, şəkilləri gənclərin nəşr etdirdiyi jurnalda da verilmişdi. İnanmayanlara o jurnalı göstərə də bilərəm. Bəlkə inəklər də elə həmin inəklərdir.

Həmin inəklər demiş, görəsən bu inəkləri "qanunu pozduqlarına" görə niyə "cərimələmirlər"? Axı parklarda, istirahət yerlərində iri və xırdabuynuzlu mal-qaranın otarılması və ya sahibsiz otlaması, həmçinin itlərin xaltasız və ağızlıqsız gəzdirilməsi zamanı cərimələrin artırılması ilə bağlı qanun layihəsi parlamentə yenicə təqdim olundu. Yəni parklara, meydanlara, çimərliklərə inək, qoyun, keçi (Qoçu Əsgərin qulağından iraq) nəzarətli və ya nəzarətsiz buraxılarsa sahibi 100 lari dəyərində cərimələnəcək, bu da indiki qiymətlə əlli litr su qatılmamış xalis süd deməkdir. Yəqin bu qayda Qardabaninin inəklərinə, qoyunlarına, keçilərinə aid deyil, ya da Qoçu Əsgərin bazarı bir-birinə qatıb səs-küy salmasından qorxaraq hamı susur, yoxsa parklarda oynayan uşaqlardan tutmuş mərkəzi yolla hərəkət edən maşınlara qədər manеə və təhlükə törədən bu inəkləri çoxdan naxıra yollamışdılar...

Bir də ki, inəkdi da, otlayıb çıxıb gedəcək, kaş dərdimiz inək olaydı. Ətini, südünü, qaymağını, pendirini yeyəndə yaxşıdırmı. "Zato" sən də bahalı dekorativ kolları, ağacları yeyən inəyin ətini, südünü, qaymağını, pendirini yeyirsən, yəni bu baha başa gələn ət, süd, qaymaq, pendir yeməklə sən də inəklə bir növ suç ortağı olursan. Yaxşısı budur, sus, yoxsa inəyin sahibinin əvəzinə səni cərimələyərlər...

Yazın oğlan çağı idi. Virtuallıqdan çıxıb bir az reallıqda istirahət etmək üçün mərkəzi parka getdim. Azyaşlı uşaqların gülüşlərinin səsi, yaşıllıq insanın gözünü, qulağını oxşayırdı. Uzun yamyaşıl otlar elə gözəl düzülmüşdülər ki, ayaqlamağa adamın ayağı gəlmirdi. Skamyada oturub yellənçəkdə bir-birini yelləyən uşaqlara baxırdım. Birdən beş-altı inək özünü parka verərək hürkmüş halda oyan-buyana qaçmağa başladı, itlər də hürə-hürə inəklərin dalıyca qaçırdılar. Yaxşı ki, uşaqların valideynləri yanlarında idi, yoxsa gözləri qızmış, hürkmüş inəklərin ayaqları altında qalacaqdılar. Valideynlər tez itləri və inəkləri parkdan qovdular. Uşaqların gülüşündən heç nə qalmamışdı, hamısı ağlaşırdı; yamyaşıl otlar isə inəklərin dırnaqları altında torpağa qarışmışdı...

O inəklər hələ də şəhərin parklarında, yollarında istədikləri kimi gəzirlər. Görəsən, Yaponiyada da sakuranı inəklər yeyirmi, itlər sakura ağacının dibində çuxur qazıb içində yatırlarmı. Görəsən, harınlamış bu inəklər kimisə öldürməmiş, əzməmiş, zibilə salmamış onları buruntaqlayacaq kimsə ortaya çıxacaqmı? Yoxsa Qoçu Əsgərin meydanda keçi oynatdığı zaman hələ bitməyimbi?..

Eh... asma kriptovalyutalar, "NFT", virtual daşınmaz əmlak, virtual torpaq alqı-satqısı haqqında oxuduğum məlumatları bölüşəcəkdim. Qorxuram bu inəklər virtual parklarımıza, əkinlərimizə də soxulalar.

## 2013-CÜ İLƏDƏK İSTEHSAL EDİLMİŞ AVTOMOBİLLƏRİN GÜRCÜSTANA İDXALI VƏ GÜRCÜSTANDAN KATALİZATOR İXRACI QADAĞAN EDİLƏCƏK



Gürcüstana 2013-cü ildən əvvəl istehsal edilmiş avtomobillərin idxalı məhdudlaşdırılacaq. Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili hökumətin iclasında bəyan edib.

"Biz ölkədəki avtomobillərlə bağlı Avro-5 standartını tətbiq etmək qərarı vermişik. Bu, praktiki olaraq o deməkdir ki, 2013-cü ilədək istehsal edilmiş avtomobillərin idxalı qadağan ediləcək", – deyə Baş nazir bildirib.

İ.Qaribaşvili minik maşınları ilə bağlı məhdudiyyətin 2024-cü ilin 1 yanvar tarixindən, avtobus və yük maşınları ilə bağlı məhdudiyyətin isə 1 yanvar 2025-ci ildən tətbiq ediləcəyini qeyd edib.

Baş nazir İrakli Qaribaşvili həmçinin Gürcüstandan katalizator ixracının da qadağan ediləcəyini deyib.

O, bildirib ki, ölkədə avtomobillərin katalizatoru çıxarılır və daha sonra xarici ölkələrə satılır.

Hökumət başçısı Gürcüstandakı avtomobillərin katalizatorlarının olmamasının havanın çirkləndirilməsinin əsas səbəblərindən biri olduğunu, bu qərarın havanın keyfiyyətini qorumaq məqsədilə qəbul edildiyini qeyd edib. O, müvafiq fərmanın tezliklə veriləcəyini bildirib.

## GÜRCÜSTANDA HEYVANLAR ARASINDA QUDUZLUĞA YOLUXMA HALLARI ARTIB



Gürcüstanda heyvanlar arasında quduzluğa yoluxma halları kəskin artıb. Cari ilin yanvar ayından may ayınadək 45 heyvanda quduzluq qeydə alınıb. Bu da 2022-ci ilin göstəricisindən 31, 2021-ci ilin göstəricisindən isə 40 fakt çoxdur.

Quduzluq adətən daha çox yay fəslində yayılsa da bu il Gürcüstanda yoluxma yaz aylarından tüğyan etməyə başlayıb.

Bu il quduzluğa yoluxma ən çox Sameqrelo-Zemo-Svaneti bölgəsində qeydə alınıb və 17 fakt təşkil edib. Quduzluğa yoluxma ilə bağlı 14 fakt Raça-Leçxumi, Kvemo Svaneti, 11 fakt İmereti bölgələrində qeydə alınıb. Bu il itlər arasında quduzluğa yoluxma paytaxt Tbilisidə də qeydə alınıb.

Quduzluğun əsasən sahibsiz itlər vasitəsilə yayıldığı bildirilir. Gürcüstanın Ərzaq üzrə Milli Agentliyi xəstəliyə qarşı mübarizə məqsədilə 400 000 doza vaksin alıb. Lakin bunun az olduğu bildirilir və agentlik daha çox vaksin almaq, digər qabaqlayıcı tədbirlər görmək niyyətindədir.

Ölkə ərazisində quduz itlərin bir neçə dəfə təkcə heyvanlara deyil, insanlara da hücum etməsi faktı da qeydə alınıb.

## HÖKUMƏT UN İDXALINA RÜSUM TƏTBİQ EDİB



Gürcüstan hökuməti iyunun 10-dan un idxalına rüsum tətbiq edib. Bu barədə Gürcüstan hökumət administrasiyası məlumat yayıb.

Məlumata əsasən, hökumətin bununla bağlı qərarı iyunun 12-dən qüvvəyə minib və noyabrın 1-dək qüvvədə olacaq.

Qərara əsasən, ölkəyə 200 kiloqramdan çox gətirilən hər bir kiloqram un üçün 20 tetri rüsum tətbiq olunacaq ki, bu da hər ton üçün 200 lari təşkil edir. Həmin rüsum biznes və sahibkarlar tərəfindən də tələb edilib. Lakin rüsumun tətbiqi ölkədə çörəyin qiymətinin artmasına səbəb olmayacaq.

Bildirilib ki, ölkədə son iki ildə yerli buğda istehsalı 60 faiz artıb və bu dinamikanın gələcəkdə də qorunub saxlanacağına ümid var.

# AÇILDI MÜCRÜ, ÖRTÜLDÜ MÜCRÜ



Gülhüseyn Hüseynoğlunun "Mücrü" mənsur şeiri ədəbiyyatsevərlərin yadında olar. Hələ məktəb vaxtından filminə də baxmışdım. Mənim də bir mücrüm var. Yox, cehizim deyil, özüm almışdım, onda hələ övladım da yox idi. Vaxtında onu əlimə alıb xeyli baxmışdım, satıcının maraqlı, təəccüblü nəzərindən utanıb tez pulunu verib uzaqlaşmışdım. Düşünmüşdüm, kaş mənim də o ana kimi savadlı övladlarım olaydı, mən də hər dəfə o mücrünü açıb diplomları mücrüyə qoyaydım. Sonda zinət əşyaları ilə yox, övladlarımın ziyasıyla dolaydı mücrü. Açıldı mücrü, örtüldü mücrü...

Onda mən də gənc idim, həyatdakı insanlara diplomun çəkisiylə baxan, həyata iyirmi neçənin təcrübəsiylə baxan gənc qadın. O vaxtdan xeyli zaman keçib. Artıq öyrənmişəm, yaşayaraq görmüşəm ki, diplom yalnız sənəd imiş – insanın özünü təqdim etməsi üçün, ilk addım üçün sənəd.

Sən danış, mən sənin kim olduğunu deyim – bilmirəm, bunu da kimsə deyibmi, amma mən özüm belə fikirləşirəm. Yüzlərlə müsbət fikirdə olduğum elə adamların elə danışıqlarını dinlədim ki, nəinki onun diplom almaq üçün itirdiyi zamana, hətta, onun auditoriyada kiminsə yerində tutduğu siyahıya heyfim gəldi. İnanın, o adamlar siyahısında həkim də, müəllim də, müstəntiq və sair var.

Səməd Vurğunun da bir şeiri vardı:

*"Baxıram Leninin kitablarına*
*Dəstədən geridə qalmamaq üçün".*

Həəə, bax torbada hamımızın gizlətdiyi pişik budur.

Biz şöhrəti uşaq oxutmaqda görən millətik. Bilmirəm, başqa xalqlarda varmı, ya yox, amma inanmıram bizim kimi kimsə ola. Özü də diplomu içdən gələn arzudan çox dəbdə olan fakültələrdən seçirik. Sonda nə olur?..

*"Müsibət oluruq biz,*
*Səhv düşəndə yerimiz" (Qabil).*

Əcnəbi seriallara baxanlar yaxşı bilər ki, oradakı ailələrdə heç də bizim kimi oxutmaq sindromu yoxdur. Ona görə film dedim ki, elə yaxın ailələr hamıda olmur. Uzağı kolleclərdən məzun olub istedadlarının arxasıyca gedirlər. Axı bizim "xalx" özü üçün yaşayandır. İndi qayıdaq özümüzə...

Məzunlarımızın hamısına uğur arzu edirəm! İnşallah niyyətlərinə çatsınlar! Sadəcə fikrimi yazıram, təkrar ola bilər. Bəzi gəncləri danışdırsan işsizlik problemindən danışır və s. Halbuki onun seçdiyi ixtisas tələbatsızdır və ixtisası öz arzusuyla seçilməyib. İş axtarmaq, özünü təqdim etmək mənasız gəlir. Sevindirici haldır ki, hazırda xeyli kolleclər fəaliyyət göstərir. Buradakı ixtisaslar dövlət tərəfindən maliyyələşdirilir və yüksək kreditli diplom verilir. Mən "Modus" və "İctimai Kollec"də olmuşam. İnanın, necə gözəl şərait yaradılıb. Görəsən, bu məzunlar niyə asan və daha sərfəli yolu qoyub, mütləq mən Tiflisdə oxumalıyam deyə düşünürlər. Hansı ki, bəzən seçilmiş ixtisaslar onların tələbata uyğun olmayan seçiminə gətirir. İnanın, kəndlərdə nə qədər əziyyətlə məzun olmuş gənclər var ki, işsizəm deyə müxalif fikirli danışır, amma düşünmür ki, turizm üzrə fakültə məzunu kənddə nə işlə məşğul olmalıdır. Bəzən bir kənddən 3-4 psixoloq məzun olaraq qayıdır. Mənə elə gəlir, əlavə şərhə ehtiyac qalmadı.

Qəti düşünməyin ki, mən gənclərin təhsilinin əleyhinəyəm, əlbəttə, məni az-çox tanıyanlar əmin olacaqlar ki, o mənada yazmıram. Mən desəm ki, kənddə zootexnik məzun varmı? Aqranom varmı? Vetapteklərı işlədən bir nəfər savadlı mütəxəssis varmı? Diplomu olan qaynaqçı, elektrik, rəngsaz, mühərrik ustası, kompüter ustası və s. varmı? Deyəcəksiniz, əlbəttə, var. Amma necə, kiminsə əlbuyruqçuluğu ilə, fəhləliklə usta olaraq işini gözəl bilənlər. Onlar özlərini təqdim edə bilmirlər, bilməyəcəklər də. Çünki özünü təqdim etməyə sənəd yoxdur.

Əziz məzunlar, valideynlərin halal zəhmətlə qazandıqları pulları beş il kirayələrdə, tələbəlikdə xərcləməklə zülmlə aldığınız diplomla sabah gedib bazarda alver edəcəksinizsə, dükan işlədəcəksinizsə, əlaltında olacaqsızsa, vallah, heyif o itirdiyiniz zamana. Ondansa kolleclərdə (texnikum və texniki peşə məktəbi) tələbata uyğun bir ixtisas seçərək qanunla işləsəniz pismi olar?

Avropada gizli-gizli, "indi qovar, bu saat qovar" qorxusuyla yaşamaqdansa, peşə diplomu təqdim etməklə alnıaçıq, sənədlə (diplom) gedib olduqca fərqli qiymətlə işləmək mümkündür axı.

Əziz şagirdlərimiz, inanın mənə, orta məktəbi savadlı qurtaran hər bir şəxs mütləq savadlıdır, çünki orta məktəb dərsliyi ictimai dünyagörüşü üçün tam əhatəlidir, üstəgəl, sizin gözəl əxlaqınız, tərbiyəniz, mədəniyyətiniz, bərabərdir şəxsiyyət. Cərgədə olmaq üçün diplom yox, sadaladığım bu əlamətlər lazımdır.

Az zamanla çox qazanmaq şansı varkən, sağ əllə sol qulağın tutulması məntiqsizlikdir. Əlbəttə, ali təhsil də lazımdır. Qoyun bu yolla həqiqi irəliləmək istəyən gənclər getsin. Hansı ki, davam etdirəcək. Kütləvi hamımız universitet oxumalıyıq düşünərkən güc-bəlayla aldıqları diplomla sabah işsiz qalmamaq üçün bu gün yaxşı düşünün. Özünüzü harada daha xeyirli görürsünüz. Qaynaqçı işini düzgün yerinə yetirərkən istənilən inşaat qrupu səni məmnuniyyətlə yüksək maaşla işlə təmin edəcək, nəinki işini yaxşı bilən, amma rəsmi sənədi olmayanı. Bağça müəllimi ixtisasçı olmayanda, əczaçı tibb bacısı olanda, hüquqşünas bankda işləyəndə, psixoloq müəllim olmaq istəyəndə və s. cəmiyyət də olur işçilər kimi qatmaqarışıq.

Son söz olaraq deyərdim ki, yolunuz açıq olsun! O yolu elə gedin ki, qayıdıb təzədən cığır açmayın, çünki hər gün ömürdən gedir. Sizə yurdumuzun sabahı kimi baxan, övlad kimi sevən və narahat olan müəlliminiz.

***Esmira Ələkbərli***

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# XARİCDƏN GÖRÜNMƏYƏN YARALAR



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

İndiki vaxtda böyük bir mənəviyyat böhranı yaşanır. İnsanlar arasında təhlükəsizlik, əxlaq və mədəniyyət yox dərəcəsinə çatıb. Hər kəs qarşısındakını aldadır, günahkar və düşmən olaraq görür. Fürsət tapanlar, ən yaxınındakıları aldatmaqdan belə çəkinmir. İslam dəyərlərindən uzaqlaşdıqca və dünyanın keçici bəzəklərinə bağlandıqca yaradılış məqsədimizdən uzaqlaşırıq. Kimin doğru, kimin səhv söylədiyi müəyyən deyil. Bu faciəvi mənzərə qarşısında uca Allah imdadımıza yetişərək belə buyurur: "Allaha çağıran, saleh əməldə olan və həqiqətən mən müsəlmanlardanam deyəndən daha gözəl sözlü kim ola bilər?" (Fussilət; 33).

İmanlı müsəlman küfr əhlinin oyunlarına gəlməz. Çünki inancının doğruluğundan əmindir. Bugünkü kitablar içərisində təhrif edilməmiş olan yalnız Qurani-Kərimdir. Kim nə deyirsə desin, mühüm olan Quranın dediyidir. Küfr əhli qarşısında zəlil və alçaq olmaqdan çəkinmək lazımdır. Günümüzün insanı bir çox pozğun məzhəbin və dünya görüşünün içərisində həyatla mübarizə aparır. Bu qruplaşmalar gəncləri̇mizi təhlükəyə sürükləyir. Kütləvi informasiya vasitələri gecə-gündüz evlərimizə qədər girib şəri bir nasos kimi beynimizə doldurur. Əzbərində "Fatihə" surəsi belə olmayanların yaddaşında nə qədər lazımsız məlumatlar vardır. Mahnı sözləri, maqazin xəbərləri, futbol ulduzları, daha bilməm nələr... Yaddaşlarımız zibilliyə dönmüş kimidir.

İman həqiqətləri gündəmimizdən düşüb. Gündəlik məsələlərlə vaxt öldürürük. Əncir toxumunu doldurmayacaq mövzuları bəzəyib-düzəyib günlərlə danışırıq. Namaz mövzusunda bir arpa boyu yol ala bilmiş deyilik. Cümə namazının bizi qurtaracağını sanırıq. Vaxt namazlarını qılanları "molla" məqamına yerləşdirib lağ edirik. Əzanlar qaralmış qəlblərimizə yol tapa bilmir. Hansımız gecənin ağaran vaxtında qalxıb oxunan səhər əzanını dinləyib nəfsimizi sorğulayırıq? Səhər namazının hikmətindən və sirrindən nə qədər bəhrələnə bilirik?

Gecəyarılarına qədər televiziya başında oturub günortaya doğru qalxırıq. Sanki gecəylə gündüzü tərs çevirib eləcə yaşayırıq. Sanki narkoz almış kimi yatırıq. Narkozdan xilas olduğumuzda isə çox gec olacaq. Halbuki edilməsi lazım olanlar bəllidir. Rəsulullah yaxşı bir müsəlmanın necə olması lazım olduğunu belə açıqlayır: "Bir-birinizə həsəd etməyin. Alverdə bir-birinizi aldatmayın. Almayacağınız malın qiymətini – müştərini zərərə soxmaq məqsədiylə – artırmayın. Bir-birinizə kin tutmayın. İncik durmayın. Bazarlığı bitmiş olan bir alveri pozmayın. Ey Allahın qulları, qardaş olun. Müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməz, darda qalmış isə öz halına buraxmaz, yalan danışıb aldatmaz. Onu kiçik görüb təhqir etməz. (Peyğəmbərimiz sinəsini işarə edərək) Təqva, yəni Allah qorxusu, Allaha qarşı hörmət duyğusu buradadır. Bir adama, mömin qardaşını xor görərək təhqir etməsi günah olaraq yetər. Müsəlmanın hər şeyi, qanı, malı və namusu digər müsəlmana haramdır" (Buxari).

Pul qazanılar da, xərclənər də. Vəzifə də gəlib keçicidir. Lakin qalıcı olan, iç dünyamızı diri tutan mənəvi cəbhəmizdir. Cəbhə başı boş qalınca döyüşdən məğlub olaraq çıxarsan. Eləcə də ruhumuza laqeydliklə yanaşdığımızda gələcəkdə sağalmaz yaralar açıla bilər. İndiki vaxtda bunun canlı nümunələrini görürük.

Mənəvi böhranlardan qurtuluşun tək yolu Qurana və sünnəyə sarılmaqdadır. Dünyada yaşanan mənəvi böhranın tək dərmanı bunlardır.

Sağalmaz kimi görünən mənəvi yaralarımız Rəsulullahın mənəvi reseptləriylə yaxşılaşa bilər. Lakin xəstə də yaxşılaşmağı istəməlidir. Məsələlərimizin çoxu iç dünyamızın tarimar olmasıyla əlaqədar olduğu üçün müalicəsi də psixolojidir. Bu yaralar xaricdən görünməsə də iç dünyamızı gəmirir. Ürəklər qaralmağa başlayarsa bir müddət sonra təmizləmək mümkün olmaya bilər. O dərəcəyə gəlmədən iç dünyamızı aydınlatmanın yollarını axtarmalıyıq.

Mənəvi inkişafın əsasını əxlaq təşkil edir. Nurani əxlaqa sahib olmadıqca qurtuluş üçün çırpınmamız bihudədir. Çünki çırpındıqca daha da batarıq. Texnoloji inkişafla mənəvi inkişafı tarazlıqda tuta bilməsək çətinliklər baş göstərər. Müvazinəti təmin etmək və o istiqamətdə yaşamaq lazımdır.

# "DÖVLƏT BU ŞAGİRDLƏRƏ 12 İLƏ GÜRCÜ DİLİNİ ÖYRƏDƏ BİLMİR VƏ SONRA DA DEYİR..." 1+4 GÜZƏŞT PROQRAMININ ARXASINDA NƏ GİZLƏNİR

Etnik azlıqların ali təhsil müəssisəsinə qəbul olunması üçün güzəştli sistem heç bir ölkədə yoxdur. Gürcüstanda güzəştli sistemin qəbul edilməsi ehtiyacı ilk milli imtahanlar dövründə yaranıb. 2005-ci ildən məlum oldu ki, məktəb qeyri-gürcüdilli şagirdlərə qeyri-bərabər akademik bilgi verir. Bu isə onları qəbul imtahanları üçün rəqabətsiz edirdi.

Gürcüstanın Təhsil və Elm Nazirliyi 2005-2010-cu illərdə etnik azlıqların ali təhsil müəssisələrinə qəbul olunması imkanlarını artırmaq üçün müxtəlif mexanizmlərə müraciət etdi. Ancaq heç bir strategiya əlverişli nəticə vermədi. 2010-cu ildən isə nazirlik qərar verdi ki, güzəşt siyasətinin ən radikal formasına – "kvota sisteminə" müraciət etsin.

Abituriyentlər ana dilində yalnız ümumi qabiliyyət imtahanı verirlər. Hər etnik icmadan ən yüksək bal toplamış 100 tələbəni dövlət gürcü dili üzrə birillik kursda hazırlayır və bütün bakalavr pilləsini maliyyələşdirir. Kvotadan kənar qalmış tələbələr isə dil öyrənməyə 2250 lari ödəyirlər. Onlar üçün kursu başa vurduqdan sonra istənilən ümumi pulsuz bakalavr proqramı da pulludur. Nazirlik bu yanaşmanı belə əsaslandırır: Əgər tələbə bir güzəştli proqramdan yararlanırsa, o zaman ikincidən yararlanmaq hüququ olmamalıdır.

"1+4 proqramının bu gün də mövcud olması dövlətin qeyri-gürcüdilli məktəb şagirdlərinə keyfiyyətli təhsil təklif etməməsinin təsdiqidir. 12 il ərzində şagirdə dövlət dilini öyrədə bilmir, qeyri-bərabər şəraitə salır və sonra isə ona deyir, etiraf edirəm ki, çatışmazlıqlar var, bunu düzəltmək üçün sənə belə bir sistem təklif edirəm, amma sən bunun üçün mənə pul ödəməlisən. Bu halda isə ictimaiyyətin böyük əksəriyyəti gürcü dilini bilmədiyinə görə azlıqların icmasını günahlandırır. Gürcüstan faktiki olaraq öz vətəndaşlarına dövlət dilini pulla öyrədən yeganə ölkədir", – deyə ictimai fəal, "Salam" platformasının üzvü Aytac Xəlilli bildirir.

O, həmçinin qeyri-gürcüdilli qrupların bu günə qədər güzəştli sistemdən yararlanması haqqında da danışır. Özü 1+4 proqramından imtina edib və bütün imtahanları verib. O, yaxşı gürcü dili müəllimi olan uğurlu şagirdlərin arasına düşüb. Xatırlayır ki, əvvəl məktəbdənkənar əlavə gürcü dili dərnəyi var idi və həftədə üç dəfə Qardabanidən gəlmiş müəllim şagirdlərə məktəbdəcə gürcü dili öyrədirmiş. İndi həmin proqram yoxdur.

"Məktəbdə gürcü dili üçün xüsusi dərsliklər var. Həmin dərsliklər yalnız dil öyrənmək üçün nəzərdə tutulub və bu biliklə necə ədəbiyyat imtahanı verə bilərsən? Proqramda iştirak etmək istəməməyimin səbəbi bu idi ki, universitetlərin ümumi yanaşması, metodologiyası yoxdur. Bəzi universitetlərdə, hətta, bunların hamısına qeyri-ciddi yanaşırlar. Faktiki olaraq məktəb proqramıdır. Gürcü dilini tam bilmədiyinə görə etnik azlıqlar onsuz da peşə mənimsəməkdə çətinlik çəkirlər və bu şəxslər sünii olaraq sadələşdirilmiş proqramlarla necə rəqabətli kadrlar ola biləcəklər?" – Aytac Xəlilli deyir.

O hesab edir ki, məktəblərdə dilin tədrisinin təkmilləşdirilməsi üçün ən mühüm ilkin şərtlərdən biri dili bilən etnik azlıqların müəllimlik peşəsinə daxil olma mexanizmlərinin yaradılmasıdır.

A.Xəlilli izah edir ki, Gürcüstanda qeyri-gürcüdilli məktəblərin əsas hissəsi etnik azlıqların məskunlaşdığı bölgələrdə – Kvemo Kartli, Samtsxe-Cavaxeti və Kaxetidə yerləşir.

"Vətəndaş İnteqrasiyası və Millətlərarası Əlaqələr Mərkəzinin" göstəricilərinə görə, hər üç bölgənin qeyri-gürcüdilli məktəbində ümumilikdə 6818 müəllim işləyir. Müəllimlərin yaşından, eləcə də onların ixtisas və dövlət dilini bilmə səviyyəsindən irəli gələrək müəllimlərin yeni nəsillə əvəz edilməsi məsələsi gündəlikdə durur. Ancaq müsahibimizin sözlərinə görə, bu məsələnin, mövcud tələblə, işlə təmin etmə bazarında nə dərəcədə həyata keçirilməsinin mümkünlüyü müzakirə olunacaq vacib mövzudur.

"Son zamanlar çox sayda gənclər öz regionuna müəllim olaraq qayıtmağı düşünür. Ancaq vakansiyalar yoxdur. Yaşlı müəllimlər məktəbdən getmək istəmirlər. Həm də, bir müəllim bir neçə fənni tədris edir. Mənim məktəbimdə, məsələn, tarix, Azərbaycan dili və təbiət fənnini eyni müəllim tədris edir. Daxili rüşvət və nepotizm çox böyük problemdir. Mənim dostumdan müəllim olaraq işə başlaması üçün pul istədilər. Son zamanlar direktorlar tərəfindən belə hərəkətlər tez-tez baş verir və bu, adi hala çevrilib", – Aytac Xəlilli deyir.

Jurnalist Harut Malxasyandan da 1+4 sistemini qiymətləndirməyi xahiş etdik. O, 2014-cü ildə gürcü dili hazırlıq proqramını keçib. Sonra isə Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsini bitirib.

O, hesab edir ki, etnik azlıqlar üçün ali təhsil istiqamətində şərait baxımından atılmış ilk addım – 1+4 proqramı həqiqətən də effektivdir və bu effektiv proqramlardan biri deyil, hətta, yeganə effektiv proqramdır:

"Məsələ budur ki, Gürcüstanın müstəqillik günündən bu günə qədər etnik azlıqların təhsil və inteqrasiyası baxımından real dəyişikliklərə səbəb olacaq başqa heç bir belə genişmiqyaslı proqram həyata keçirilməyib".

Kvota sistemi qəbul olunduqdan sonra Gürcüstan ali təhsil müəssisələrinə qəbul olan etnik azlıq tələbələrinin sayı ciddi şəkildə artdı və bu tendensiya bu günə kimi qorunub saxlanılır. Sosial Ədalət Mərkəzinin statistikasına görə, 2010-cu ildə 247 tələbə ali təhsil müəssisəsinə qəbul olmuşdursa, bu gün bu rəqəm 1231-ə qədər artıb.

Harut Malxasyan qeyd edir ki, tələbələrin sayının artması ilə yanaşı kvota sayına da yenidən baxılmalıdır. Hər il 100 azərbaycanlı və 100 erməni abituriyent maliyyələşdirmə qazanır. Ancaq təxminən 1200 tələbədən 900-ü azərbaycanlı, 300-ü ermənidir. Belə çıxır ki, hər üç erməni gəncdən biri qrant qazanır, azərbaycanlılarda isə bu, hər doqquz gəncdən birini təşkil edir.

21 yaşlı Ruslan Ömərov ingilis dili filologiyası üzrə tələbədir. Paralel olaraq isə pedaqogikanı öyrənir. O, təəssüf edir ki, çox az bal fərqinə görə təhsilini pulsuz davam etdirəcək 100 tələbə arasına düşə bilməyib. Gürcü dilini təkmilləşdirmək üçün məktəbin son üç ilini güclü hazırlaşıb – fərdi hazırlıqlar, müəllim və onun kəndində yeganə etnik gürcü ailə nümayəndəsi olan gürcü sinif yoldaşının köməyi ilə çalışıb. Ümumi qabiliyyət üzrə hazırlıq üçün Dmanisidən Marneuliyə gedirmiş. Bu isə hazırlıq xərcini artırır, keyfiyyəti isə daha da pisləşdirirdi. Ruslan Ömərov hazırlıq kursunun nə dərəcədə effektiv olub-olmaması sualına belə cavab verir:




"Mənim üçün hazırlıq kursu az-çox effektiv idi. Bal sistemi ilə qiymətləndirsəm 10 baldan 7 bal qeyd edərdim. Bu proqramdan əlavə, müstəqil olaraq, əlavə video və ya yazılı materiallardan da istifadə edirdim. Təhsil prosesinin yalnız formal olmasını, dərs mühiti ilə kifayətlənməni çatışmazlıq hesab edirəm. Proqramın iştirakçısı olan şəxslər əlavə olaraq qeyri-formal aktivliklərə qoşula bilmirlər. Bu aktivliklərdə ana dili gürcü dili olan adamlarla ünsiyyət qura bilərdilər. Çox adam müstəqil şəkildə bunu bacara bilmir. Çünki gürcü dilini kifayət qədər bilməməkləri buna kompleks yaradır. Proqram həqiqətən ideal deyil, düşünürəm, məktəb, məktəbəqədər təhsilin təkmilləşdirilməsi baxımından planlı və konstruktiv addımlar atılmalıdır. Bundan sonra bu proqrama ehtiyac da qalmayacaq".

1+4 proqramında dövlət siyasətinin çoxsaylı çatışmazlıqları gizlənir – məktəbəqər təhsilin aşağı əlçatanlığı, mədəni qapalılıq, qeyri-effektiv dərsliklər və proqramlar, aşağı kvalifikasiyalı müəllimlər, universitet proqramlarının düşünülmədən seçilməsi, abituriyentlərin bazar tələbləri və işlə təmin edilmək üçün mühüm aspektlər haqqında məlumatsız olması, universiteti bitirmənin aşağı və işsizliyin yüksək göstəricisi, dövlət xidmətlərində monoetniklik... – siyahını sonsuza qədər davam etdirmək olar.

"Yaşıl Qafqaz"ın 2016-cı il araşdırmasına görə, Kvemo Kartli bələdiyyələrinin yerli özünüidarələrində işləyənlərin ümumi sayı 17 %-dir, Kvemo Kartli əhalisinin 49 %-ni isə qeyri-dominant qruplar təşkil edir. Bu problemin həlli üçün Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatının dəstəyi ilə "1+4 təcrübə proqramı" həyata keçirilir. "Edu.aris.ge" təcrübə keçdiyi qurumlarda neçə nəfərin işlə təmin edilməsi haqqında statistika əldə etməyə çalışdı. Aydın oldu ki, belə statistika yoxdur. Dövlət strukturları, ümumiyyətlə, etnik baxımdan mühüm statistikanı qeydə almırlar. Bu da böyük problemdir.

Bəzi problemlərə baxmayaraq, qəbul olmaq istəyənlərin sayı ilə yanaşı dil bilənlərin sayı da ildən-ilə artır. Etnik azlıq nümayəndələri isə dövlətdən dövlət dilinin tədrisi kimi müsbət öhdəlikləri həyata keçirməyi daha çox tələb edirlər. Artıq bir ildən çoxdur ki, "Gürcü dilini pulsuz öyrət" kampaniyası aparılır. Nazirlik kampaniyanın təşkilatçılarına bildirib ki, dəyişikliklər planlaşdırılır, ancaq nə zaman və hansı dəyişikliklərdən söhbət getdiyini konkret vurğulamayıblar.

*Yazı "edu.aris.ge" saytından götürülərək gürcü dilindən Azərbaycan dilinə tərcümə edilmişdir.*

Yazının müəllifi: **Keti Baxtadze**

Tərcüməçi: **Aynurə Əliyeva**

# İMTAHAN TƏBİLİ ÇALINIR



Bu həyat imtahanlarla doludur, çətinlikləri çoxdur. Bəzən dözə bilməyəcəyimiz qədər ağır dərdlərlə gəlir üzərimizə. Amma hər biri gəlib keçib gedir. Həyat imtahanlarından başqa bizi indi universitet imtahanları gözləyir. Həyat imtahanlarıyla qəflətən üzləşirik, amma bu test imtahanına əvvəlcədən hazırlıq başlayır, xəbərdarlıq edilir. Hər birimizə həyat imtahanı çətin gəlir, amma təəssüflər olsun ki, hələ də bu testdən ibarət olan imtahanı özünə ölüm-qalım məsələsi edən gənclər, abituriyentlər var.

Artıq, demək olar ki, imtahanlara son bir ay qalıb, imtahan öncəsi stres də normal olaraq başlayıb. Özünə inamsızlıq, qorxu, təlaş, həyəcan insanın yuxularını qarışdırmağa səbəb olur. Bütün həyatını imtahana bağlayanların halı isə daha betərdir. Hələ cavabları naməlum olan imtahanın düşüncəsi yetmirmiş kimi bir də valideyn basqısı...

Valideyn çalışmalıdır ki, övladına dəstək olsun, onun üzərinə getməsin, çünki valideyn uşaqları imtahana hazırlayır. Əslində, təkcə biz imtahan vermirik, valideynlərimiz də bizimlə bərabər o imtahanı verirlər. Bir neçə il öncəyə qədər məktəblərdə attestat imtahanları keçirilirdi, hər bir məzun bu imtahanı verməli idi. Ali məktəbə getməyənlər üçün bu elə də böyük dərd deyildi, amma universitetə hazırlaşan hər bir abituriyent bu imtahanı verməli idi. O zamanlar məktəb koridorlarında yaşanan həyəcan və hisslər gözümün önünə gəlir. Övladı uğurla imtahan otağından çıxanda valideynin tökdüyü göz yaşı, yaşadığı hiss və duyğu, bir sözlə, ən azı övladı qədər o imtahanı yaşadığını göstərirdi. Elə bir vəziyyət yaranırdı ki, sanki övladı yox, özü o imtahan otağındadır.

İndi o imtahanlar yoxdur, amma qəbul imtahanı var. Məktəbdə öyrəndiyimiz o qədər fənnin bizə yardım etmədiyi sadəcə bir imtahan – riyaziyyat və məntiq imtahanı var. 12 il öyrətdikləri hər şeyi 3 saat içində yoxladıqları həmin o imtahana az qalıb.

Bəzi valideynlər övladından çox şey tələb edirlər. O qədər ili uşağı oxumayıb, nə də ki, üzərinə düşməyib. İmtahana 10 ay qalmış isə müəllim yanına hazırlığa göndərərək övladlarından yüksək nəticə tələb edirlər. Bu, doğru hərəkət deyil. Uşaq qorxuya düşür, fikirləşir ki, bu qədər xərc çəkilib, imtahandan kəsilsəm bu, fəlakətim olacaq. “Mən bu imtahanı verə bilməsəm evdə üzümə baxan deyillər” deyən neçə yoldaşlarım var. Çünki uğursuzluqla qarşılaşacağı üçün qorxuya düşüblər. Axı nəyə görə 3 saatlıq bir imtahan üçün övladından keçən valideynlər var. Məhz elə buna görə imtahanda uğursuz olub deyə öz canına qıyan gənclər hələ də var. Düşünürlər ki, aşağı bal toplayıbsa, imtahandan kəsilibsə, daha bir də bu şans ona verilməyəcək. Bunların hamısının səbəbkarı valideyn və qohum-əqrəbadır; bir də, sadəcə danışmaq üçün danışanlar, hansı ki, heç o imtahanı verən uşağın bildiyini bilmirlər. “O boyda pulu tökdü hazırlığa, uşaq da bir yarıdan olaydı, ağlı da yoxdur belə şeyə pulunu hədər edirdi” deyən insanların ucbatından qorxu içində özünə inamsız şəkildə imtahana girib, həyəcan bir yandan, qorxu da bir yandan, bildiklərini də unudurlar. Gələcəklə bağlı düşüncələr, qohum-əqrəba tərəfindən qınanmaq qorxusu, valideyn tərəfindən təzyiqə məruz qalmaq – hamısı üst-üstə gəlir, belə olan halda nəticə, əlbəttə, uğursuz olar.

Danışanlara bəlkə heç nə edə bilmərik, amma ən böyük dəstək valideyn dəstəyidir. Valideyn uşağını psixoloji olaraq rahat saxlamalıdır. “Bu il olmasa, gələn il cəhd edərsən, harada hansı səhvləri etmisən, araşdırarsan, tapıb daha yaxşı hazırlaşarsan” deməyin özü uşaqda motivasiya yaradır. Atalar demiş, nə tökərsən aşına, o da çıxar qaşığına. Uşağı ruhlandırsan o da səni sevindirmək üçün çalışar. Valideyn övladına sevgi, güvən, inam verdikcə, övlad ailədə özünü mühüm biri kimi hiss edir, faydalı olmağa çalışır.

Keçən il qəbul olan dostlarımla söhbət etdim. Uğurlu olmuş insanların videolarını izlədim. Deməli, imtahan qabağı stresi, təlaşı azaltmaq üçün gələcəklə bağlı gözəl günləri düşünmək lazımdır. İmtahandan bir neçə gün əvvəl mümkün qədər dərsləri azaltmalıyıq. Beyini çox yormaq olmaz. Yuxu saatına diqqət etmək lazımdır, imtahandan öncə 1 saat yuxu saatımızı artırmalıyıq, bunu səhər gec duraraq yox, axşam tez yataraq etməliyik. Bu zamanlarda lazımsız informasiyalarla beyini doldurmaq olmaz. Buna görə də sosial media, filmlər, kompüter oyunlarından uzaq durmaq lazımdır.

İmtahan müharibədən də çətindir (Napoleon). Bu çətinliyə qalib gəlmək üçün, bəli, əvvəla çox çalışmalıyıq, amma sadəcə biliyi, gücümüzü yox, psixoloji baxımdan da özümüzü hazırlamalıyıq.

İnsan özünə inansa bacara bilməyəcəyi şey yoxdur.

Bütün imtahan həyəcanında olan hər kəsə uğurlar arzulayıram!

**Aytən Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# HƏYATIMIZI İDARƏ EDƏN SOSİAL MEDİA



Modern cəmiyyətin həyatında medianın rolu həmişə böyükdür. Belə ki, sosial şəbəkələrin sayı artdıqca mediaya maraq da gündən-günə artır. Sosial şəbəkələr vasitəsilə bəzilərimiz informasiya toplayır, bəzilərimiz isə məhz işlərimizin çoxunu bu şəbəkələrdən istifadə edərək həl edirik.

Artıq media həyatımızın bir hissəsinə çevrilib. Necə ki, insan susuz yaşaya bilməz, media da artıq bizim üçün bu qədər dəyərli hala gəlib. Böyüklərdən uşaqlara kimi hər kəs sosial şəbəkələrdən istifadə edir. Məsələn, qadınların əksəriyyəti üçün yemək proqramları, kişilər və gənclər üçün futbol, uşaqlar üçün xüsusi oyun proqramları, informasiya əldə etmək istəyənlər üçün isə xəbərlərin dərc olunduğu saytlar, gənc qızların marağını çəkən gözəllik yarışmaları və sair maraqlı gəlir. Eyni zamanda media vasitəsilə biz həm maddi, həm də mənəvi problemlərimizi həll edirik. Kimisi özünə şəxsi sayt açaraq məşhurlaşır və bununla gəlir mənbəyi əldə edir. Kimisi isə öz problemlərinin həllini məhz medianın köməyi ilə edir. Necə? Demək olar ki, çoxlarının eyni olan problemlərindən biri gəlir yerinin olmamasıdır. Məhz sosial şəbəkələr vasitəsilə çoxları onlayn rejimdə işləyirlər və qazanc əldə edirlər.

Bununla belə, sosial medianın gündən-günə istifadəçiləri artmağa davam edir. Dünyada, demək olar ki, insanların əksəriyyəti sosial medialarda gündə ən azı iki, üç saatdan çox vaxt sərf edirlər. Nənə və babalarımızın fikrinə görə, bu, qəribədir. Çünki illər əvvəl medianın nə olduğunu belə bilmirdilər. İnsanlar işlərini texnologiyasız həll edə bilirdilər. Amma indi hər kəsin əlində bir (və artıq) telefon var. Heç texnologiyanın bu qədər inkişaf etməsi ağla belə gəlməzdi. Ancaq indi bəzi insanlar sosial şəbəkələrsiz işlərini həl edə bilmirlər. Bu şəbəkələr vasitəsilə bir çox uğurlar əldə edənlər belə var. Medianın olması ən çox ərincək (heç bir fiziki iş görmək istəməyən) insanlar üçün yaxşı vasitədir. Belə ki, onların işlərini asanlaşdırır. Məsələn, əvvəllər toy mərasimlərinə dəvət etmək üçün evlərə gedərdilər, amma indi sosial şəbəkələrdən istifadə edərək xəbər verirlər. Belə getsə çölə çıxmağa ehtiyac olmayacaq. Hər şey evdən idarə olunmağa başlayacaq.

Hər şeyin yaxşı və pis tərəfi olduğu kimi medianın da həyatımızda pis təsiri də vardır. Pis təsiri odur ki, insanlar arasında rəqabət və qısqanclıq artır. Əlbəttə ki, rəqabət pis deyil. Ancaq insanlar bəzən çox boş şeylər uğrunda rəqabət aparırlar. Məsələn, onun yeni telefonu var, gözəl paylaşımlar edir, mən də son model telefon almalıyam; onun sosial şəbəkəsində izləyici sayı çoxdur, mən necə etməliyəm ki, izləyicilərimin sayı artsın və sair. Çölə çıxdıqda telefondan başını qaldırmayan, az qala başını telefonun içinə salan insanlara da rast gəlirik. Hətta, telefonuyla yatıb-qalxan insanlar da var. Xəbərlərdə oxumuşdum: Bir gənc qız ailəsi ona yeni telefon almadığı üçün evi tərk edib. Gör günümüz necə xəbərlərlə keçir.

Əlbəttə ki, sosial medialar olmasaydı biz harada nə baş verdiyini, dünyagörüşümüzü bu qədər çox inkişaf etdirə bilməzdik. Çünki illər keçdikcə texnologiyanın inkişafı bizi elə bir vəziyyətə gətirib ki, biz artıq istədiyimiz hər şeyi mediada axtarıb tapırıq. Xarici dili öyrənmək istəyiriksə xüsusi pul xərcləmirik, mediadan öyrəndiyimiz kursların və proqramların köməyi ilə pulsuz öyrənə bilirik. Beləliklə, sosial şəbəkələrdən aldığımız məlumatlar sayəsində həyatımız daha da asanlaşır. Əlbəttə, hər kəsin həyatı deyil, düzgün istifadə edənlərin.

**Validə Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# İMTAHAN SON DEYİL



Bəzi uşaqlar imtahanın son olduğunu düşünür, amma bu, çox yanlış bir düşüncədir. Tam tərsinə, imtahan həyat yoluna atdığımız ilk adımlardan biridir. Bəzən uğursuz da ola bilərsən. Bu, normal bir şeydir. Ruhdan düşmək çox yanlışdır, çünki irəlidə bizləri nələrin gözlədiyini bilmirik. Həyat möcüzələrlə doludur və ən əsası həyat tənbəl insanları sevmir.

İmtahana hazırlaşanlarda bacara bilməyəcəkləri qorxusu və valideyn tənbehi qorxusu olur. "Əziyətimizi boşa çıxarma, biz boğazımızdan kəsib səni hazırlığa göndəririk, sən də bacarmaq məcburiyyətindəsən" kimi söhbətlər və ya digər uşaqlarla müqayisə, məsələn, "filankəsin uşağı qəbul oldu, mənimki ola bilmədi" çox olur. Hər kəs özəl və təkdir, kimsə bir-birindən əskik və ya üstün deyil.

Problem yetərincə vaxt ayırmamaqdadır, bunun da ən aşkar səbəbi telefondur. Bəzən düşünürəm ki, telefonla məşğul olduğum zamanı dərslərə ayırsam daha yaxşı olardı, amma insan özünə əngəl ola bilmir.

İmtahanın son olduğunu, imtahandan kəsilməyin həyatın məhvi olduğunu düşünmək yanlışdır. İnsan həyatı imtahandan daha önəmlidir. Hər bu imtahanlar vaxtı canlarına qıyanlar olur. Axı bu, bir ilkdir, bunun davamı var, bu il olmaz, gələn il olar. Bəlkə də biz bu bir ildə daha çox çalışıb daha uğurlu olacağıq. Bəlkə də bu vaxt bizə verilmiş bir şansdır.

On il sonra arxaya baxıb peşman olmayacağınız şeylər edin. Həyat insana bəxş edilmiş bir möcüzədir. İntihar çıxış yolu deyil, geridə gözüyaşlı ailəniz və sizi sevən insanlar qalır. Heç bir valideyn buna layiq deyil. Hər bir valideyn öz uşağını yaxşı yerlərdə və uğurlu görmək istər.

Uğurlu olmaq insanın öz əlindədir. Çevrənizdə sizinlə bərabər imtahana hazırlaşan, bilikdə üstün olan dostlarınız var, onlar da sizin kimi insandı, yeganə fərq sizdən çox çalışmasıdır. Siz də daha çox çalışmaqla üstün ola bilərsiniz. Əgər bir hədəfin varsa və nizam-intizamlısansa, gec ya tez o hədəfə çatacaqsan. Yəni səadət hərkəsin öz əlindədir, işində, gücündə, əməlindədir (Bəxtiyar Vahabzadə).

Əziz imtahana hazırlaşan məzunlar, heç bir şey sizdən önəmli deyil.

İzlədiyim bir film haqda danışmaq istəyirəm. Filmdə iki yaxın dost imtahana hazırlaşır. Bunlardan birinin maddi durumu yaxşı, digərininki isə pis idi. İkincinin anası oğlu universitetə qəbul olunsun deyə təkbaşına çalışırdı, amma tək problem oğlunun həvəsinin olub-olmamağını soruşmamasında idi, çünki cavabını bilirdi. Oğlu təmirçi olmaq istəyirdi, anası isə oğlunu daha yaxşı işdə görmək istəyirdi. Nəhayət imtahan günü gəldi. Bu iki dostdan madi durumu yaxşı olan qəbul olundu, o biri isə imtahandan kəsildi. Anası çox heyifsiləndi və oğlan öz istəyi olan təmirçilik işinə başladı. Aradan on il keçdi və oğlan öz təmirxanasını açdı, madi durumunu düzəltdi. O biri dostu isə əməlləri üzündən heç bir işin sahibi olmadı.

Yəni demək istədiyim budur ki, əgər bir şeyə həvəsiniz varsa onun üzərində çalışın. Həyat yolumuz hələ çox uzundur, irəlidə bizləri hansı sürprizlərin gözlədiyini bilmirik; necə ki, beş dəqiqə sonra nə olacağını bilmirik, eləcə də bir il sonra bizləri nələrin gözlədiyini deyə bilmərik. Hər şey öz əlimizdədir, əgər əqli cəhətdən bir qüsurumuz yoxdursa, demək ki, çalışaraq, zamanımızı boş işlərə sərf etməyərək uğur qazana bilərik.

**Hüryət Rəhimova**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# ŞİDDƏT, ZORAKILIQ NƏYİSƏ HƏLL ETMİR



Gənclərin çox vaxt rastlaşdığı sözdür bu: "Telefonu mənə ver". Valideynlər uşaqlarını niyə belə cəzalandırırlar? Belə etdikcə onları özlərindən soyudurlar.

Telefonun bizim vaxtımızı oğurladığı doğrudur. Bizim telefonda çox vaxt keçirdiyimizi görən valideynlər telefonu əlimizdən alaraq bizi faydalı işlər görməyə sövq edirlər. Amma, sizcə, bu, doğru yoldurmu?

Psixoloqlar bunun düzgün bir hərəkət olmadığını və uşaqların valideynlərinə nifrət etməsinə səbəb ola biləcək bir davranış olduğunu deyirlər. Bundansa onlara başqa bir məşğuliyyət tapmalarına kömək etmək lazımdır. Məncə, rəsm çəkməyə maraq oyandıra bilmək ən gözəl məşğuliyyətlərdən biridir. Və yaxud uşaqların nəyə marağı varsa onun üçün şərait yaratmaq lazımdır. Bu, oxumaqdırsa, onları oxudun, beləliklə uşaqlarınızın həm sevgisini, həm də etibarını qazanmış olarsınız. Elə edin ki, uşaqlarınız "valideynim mənim yaxşılığımı istəyir" deyə düşünsün. Təbii ki, bu, artıq böyümüş uşaqlar üçün çətindir. Əgər uşaqlarınız əsəbidirsə onlara psixoloqun köməyi ilə dəstək ola bilərsiniz.

Buradan valideynlərə demək istədiyim bir neçə söz var. Sizin deyəcəyiniz kiçik bir söz və ya bir hərəkət uşaqlarınızın yaddaşında qalacaq və onlar böyüdükcə o söz də, hərəkət də onlarla bərabər böyüyəcək. Mən burada gənclərin hər hərəkətinə haqq qazandırmıram. Amma valideyn həmişə insanın arxasındakı bir dağdır, etibardır.

Ola bilər, valideyn övladına görə narahatdır, onu qorumağa çalışır. Bunun bir çox yolu vardır. Uşaqlarınızla dost olun. Telefonu uşağın əlindən almaqla onu düzgün istiqamətləndirmək olmur. Bu, uşağı daha çox hirsləndirir, əsəbiləşdirir və nifrət etdirir. Və yaxud, uşaq pis oxuyursa ona ürəkdirək vermək lazımdır. Bəzi ailələrdə uşaqlara qarşı o qədər qəddar davranırlar ki, o uşaqlar valideyn tərəfindən döyüləcəklər deyə səhvini deməyə qorxurlar. Hətta, bu, intihara da aparıb çıxarır. İmtahanı verə bilmədiyi üçün özünə qəsd edənlərin xəbərini azmı eşitmişik...

Dünyada çarəsi tapılmayan bir şey varsa o da ölümdür. İmtahanı verə bilmədinsə dünya dağılmayacaq, qiyamət qopmayacaq ki. Oxumaq gözəldir. Amma arxanda ailənin durduğunu bilmək insana güvən verir. Telefonu uşaqların əllərindən almaqla, onları məhrum etməklə deyil, güvən verərək edin bunları.

Sonda eşitdiyim bir əhvalatı qeyd edim. Valideyn uşaqlarını psixoloq yanına aparır. Psixoloq uşağın ölümə meyilli olduğunu deyir. Valideyn buna inanmır. Və evə qayıdanda uşağı "sən niyə özünü öldürmək istəyirsən" deyə döyürlər... Şiddət! Yenə burada şiddət böyük bir rol oynayır. Şiddət, zorakılıq nəyisə həll etmir.

**Sübhanə Abdullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# XARİCİ GÖRÜNÜŞLƏ DOST OLANLAR



Məncə, dostu, rəfiqəsi olmayan insan yoxdur. İşdə, məktəbdə, evimizdə maddi və mənəvi problemlərimiz olur, çox təəssüf ki, problemlərsiz olmur. Bu problemli vaxtlarımızda bizə dəstək verənlər, ailəmizdən sonra, əlbəttə ki, dostlarımızdır.

Əfsuslar olsun ki, həyat bəzən bizi bu mövzuda da çaşdıra bilir. Necə deyərlər, dost dar gündə tanınar. Məncə, əsl dost dar gündə də, xeyir gündə də yanında olandır. Fikrimcə, bu sözün içində gizlənən bir məna var, bu güvəncdir. Güvənc olmasa dostluq alınmaz. Əgər bir şəxs sənin həyatında böyük rol oynayırsa, ailəndən sonra sənin ikinci dayağındırsa, bacı-qardaşındırsa və ən əsası, doğmandırsa güvənc ən önəmli rol oynayır.

Elə insanlar var ki, hər kəsi özünə dost bilir, yaxın olur, hər sirrini, hər şəxsi məsələsini danışır, bu xüsusiyyət çox vaxt insanın qəlbinin təmizliyindən irəli gəlir. Elə insanlar da var ki, sadəcə xarici görünüşünə dəyər verir insanın.

Belə bir söz oxumuşdum: insanlar xarici görünüşü ilə deyil, daxili gözəlliyi ilə insandır. Çox təəssüflər olsun ki, günümüzdə insanlar dost seçərkən artıq diqqətli olmurlar və xarici görünüşə dəyər verərək "yanıma kim yaraşar" fikri ilə dost seçimlərini edirlər. Bu necə dostluqdur?..

Əfsuslar olsun ki, danışdıqlarımın şahidi olmuşam. İnsan olan, vicdanı olan, şərəfi olan belə hərəkətlərə yol verməz, bu, yolverilməzdir.

Məncə, bu cür hallara rast gəldikdə müdaxilə olunmalıdır. Ən azından aldanılan tərəfi başa salmalıyıq ki, həyatınla oynanmağına icazə vermə.

Bu, çox ciddi məsələdir. Nəticədə bir insan sənin hər şeyini bilir və bu bildikəri ilə sənə qarşı hər şey edə bilər. Ona görə də dost seçəndə onun xarici görünüşünə deyil, daxili gözəlliyinə baxmalıyıq.

**Elif Əliyeva**

*Kosalı ictimai məktəbinin 9-cu sinif şagirdi*

# “KOROĞLU”NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**

*(əvvəli ötən sayda)*

**Onuncu boy.** Toqatlı Hasan paşa rahatlıq tapa bilmirdi. Koroğludan qisas almaq istəyirdi. Bir növ təcrübəli tacirlər ağsaqqalı olan Əhməd tacirbaşını yanına çağırtdırdı və tacirləri qarət edən Koroğlunun aradan götürülməsi planı ilə tanış etdi. Əhməd tacirbaşı böyük tərəddüddən sonra razılaşdı. Getməmişdən əvvəl iki çoxbilmiş, haramzada iş gördü. Bu işlərin biri o oldu ki, getməmişdən öncə Bəyazid paşası Xəlil paşanın yanına getdi, ona əgər Koroğlunun əlinə düşsəm, elə bir qurğu quracağam ki, Koroğlunu Bəyazidə göndərim və gələndə onu tutub Hasan paşaya xəbər çatdırasan deyə tövsiyə etdi. Sonra evə qayıtdı, bir qara qulu var idi. Onu evləndirməyi, qulluqdan azad etməyi, özünə də maya verib dükan açdırmağı vəd etdi. Qul da razılaşdı və Koroğlunun yanına yollandı. Koroğlu ən etibarlı və ən inamlı adam idi, lakin bu dəfə qulu imtahana çəkmək qərarına gəldi, əgər sazı, səsi, sözü ona bir təsir etməyəcəkdirsə, bil ki, namərd adamdır. Elə də hərəkət etdi. Koroğlu qula dedi: “Oğul, mənim ki, nə sazın, nə sözüm, nə səsim sənə əsər eləmədi. Səndən Koroğluya Koroğlu dəlisi olmaz” *(Bax: “Koroğlu”, səh. 409).*

Əhməd tacirbaşı bir çox hiyləyə əl atdı ki, ticarətdən qayıdır, bir təhər onun əlindən çıxmağa çalışdı. Lakin Koroğlunu aldada bilmədi. Çıxılmaz vəziyyətə düşən Əhməd tacirbaşı hiyləgərliklə Koroğluya dedi: “Ancaq bu karvan Toqat paşası Hasan paşanın karvanıdır. Day bundan sonra mən onun üzünə çıxa bilmərəm. İndi ki, malları aparırsan, elə özümüzü də apar, sənin yanında qalaq. Xeyirimizdən savayı zərərimiz dəyməz”. Koroğlu cavab verdi: “Malları aparmağına aparacağam. Nə qədər ki, mən sağam, Qafın bu üzündən o üzünə gərək bir arşın da bez getməyə. O ki qaldı sizi Çənlibelə aparmağa, mən mərdəm. Qonaq ki var, mənim əzizim, iki gözümdü, düşün qabağıma!” Onlar da birbaş gəldilər Çənlibelə. Sonra Əhməd tacirbaşından soruşdu: “Deyin görüm könlünüz nə istəyir, hazır elətdirim”. Əhməd tacirbaşı da dedi: “Koroğlu, əgər bizə yaxşı hörmət eləmək istəyirsənsə, Bəyazid yazısında yaxşı ceyran olur. Göndər onlardan vurub gətirsinlər, bizə ceyran kababı ver”. Koroğlu buna necə yox deyərdi və ceyran ovuna Eyvaza, Halaypozana və Toxmaqvurana icazə verdi. Dəlilər yerbəyerdən töküldülər Koroğlunun üstünə ki: “Sən ceyran ətindən ötrü bunları niyə Bəyazid kimi uzaq səfərə göndərirsən? Gedərlər, başlarına bir iş-zad gələr”. Koroğlu ayağa durub dedi: “Koroğlu sözünü bir dəfə deyər. Onlar getməsələr özüm gedəcəyəm. Mən qonağa verdiyim sözdən dönmərəm” *(Bax: “Koroğlu”, səh. 414).*

Dəlilər Koroğlunun xasiyyətini bilirdilər. Bir dediyini, bir daha deməzdi. Çar-naçar razı oldular. Üç dəli Bəyazidə tərəf yol başladılar. Getməmişdən öncə Nigar xanım Eyvazdan soruşdu: “Eyvaz, de görün sizi nə vaxta gözləyək?” Eyvaz cavab verdi: “Bu gün yolda, sabah ovda, birisi gün axşam inşallah burdayıq”. Bunu deyib atları sürdülər. Ovçular Bəyazid kövşəninə çatdılar, lakin istirahət etmək qərarına gəldilər. Düşüb atları yançidar edib ota buraxdılar. Özləri də yatdılar ki, səhər tezdən durub ov eləsinlər.

Bu ərəfədə Əhməd tacirbaşı özünün göndərilmiş qulunu onların tutulmasını, Eyvazgilin Bəyazidə getdiyini bildirmək üçün Toqata Hasan paşanın yanına göndərdi.

İndi Bəyazid paşası Xəlil paşaya da xəbər verdilər ki, kövşəndə üç nabələd adam var. Paşa ehtiyatlılıq göstərdi və dedi ki, biz kövşəndə dava başlasaq onları tuta bilməyəcəyik. Ovlasınlar, yatanda üstlərinə hücum edərik. Qısası, dəlilər ilə paşanın əsgərləri arasında əlbəyaxa dava oldu. Böyük davadan sonra elə ki, üç igidə bir şey edə bilməyəndə paşanın əmri ilə onların atlarını vurdular. Dava zamanı Eyvazın ayağı ilişib üzüqoylu yıxıldı. Bundan istifadə edərək düşmənlər hər tərəfdən töküldü. Tutub əllərini bağladılar. Onun silahdaşları bunu görəndə əlləri boşaldı. Elə bilə-bilə düşmənə təslim oldular. Xəlil paşa elə həmin an Toqatda Hasan paşaya bir namə göndərdi ki: “Koroğlunun üç dəlisini tutmuşam. Durma, gəl”.

Nigar xanım vədə gününü axşamacan gözlədi. Eyvazgil gəlmədi. Nigar döndü balasını itirmiş marala. Çənlibeli götürdü başına. Gecə döndü oldu bir cəhənnəm. Halbuki gözünü yumcaq yuxu onu apardı. Gördü ki, qandan bir dəryadı, Eyvaz qan içində, az qalır ki, batsın. Nigar xanım dəli kimi yerindən sıçrayıb saldı özünü Koroğlunun üstünə və dedi: “Verdiyi vədədən keçdi, gəlmədi Eyvaz, gəlmədi”. Koroğlu da özünəməxsus hay vurdu. Dəli Həsəni çağırıb hökm elədi ki, hər dəstə öz sərkərdəsinin dalınca gedəcək. Özü də Qıratı yəhərlətdirib atlandı. Bu ərəfədə Dəli Mehtər başıalovlu özünü yetirərək Düratın itdiyi barədə də məlumat verdi. Hər yeri axtardılar, Dürat tapılmadı. Koroğlu fikir apardı və axırda Dəli Həsənə dedi: “Mən gəlincəyə kimi Əhməd tacirpbaşının əllərinə, ayaqlarına zəncir vurub zindana salarsan”. Tacirbaşı onu töhmətləndirir: “Sizdə qonağa beləmi hörmət eləyirlər?” Koroğlu cavabında dedi: “İnşallah, qul tapılandan sonra hamısının əvəzini çıxardarıq”. Bu cavabda müəyyən istehza da özünü büruzə verir.

Qısası, Koroğlu öz Qıratına sıçrayana kimi aşıq Cünun ilə deyişə bildi. Belə ki, bu deyişmə bir tərəfdən Koroğlunun qəzəbini və qisas almaq hədəsini, o biri tərəfdən isə Cünunun tövsiyəsini bizə təqdim edir. Bir-iki kəlmə ilə belə çatdırılır: “Çox bilib, az danışmaq igidin ləngəridi” *(Bax: Elə orada, səh. 423).*

Qısası, Koroğlu dəlilərin dustaq edildiyi, yüzəcən yaraqlı-yasaqlının keşik çəkdiyi yerə gəlib çıxdı. Koroğlu Cünunun sözünü və Nigar xanımın ağlamağını xatırladı. Elə bil ki, dünya başına hərləndi. Misri qılıncı çəkib keşikçilərə hücum etdi. Sağdan, soldan vurub keşikçiləri qatım-qatım qatlayıb qabağına qatdı. Koroğlunun gözü elə qızmışdı ki, paşanın qoşununun dalbadal gəldiyini görmürdü. Bu ərəfədə dəlilər də özlərini vurdular qoşuna. Paşanın qoşununu pis günə qoydular. Xəlil paşanın başını isə Qırat ağzına saldı. Qoşun paşanı ölmüş görüb silahı atdı və təslim oldu.

Qaliblər Çənlibelə qayıtdılar.

Hər şeydən öncə dastanın təhlili zamanı gözə dəyən epizodların dinamik şəkildə dəyişkənliyidir ki, bu da fərqli durumları bizə nəql edir. O da diqqətə layiqdir ki, bir epizoddan o biri epizoda keçəndə yaradıcı bu cür söz strukturundan istifadə edir: “İndi eşit, sənə deyim, Bəyazid paşası Xəlil paşadan” *(Bax: Elə orada, səh. 415),* “Qasid naməni aparmaqda olsun, dəlilər zindanda yatmaqda” *(Bax: Elə orada, səh. 412),* və ya “İndi qabaqda Koroğlu, onun dalınca, Dəmirçioğlu, onların da dalınca dəlilər getməkdə olsunlar, sənə kimdən deyin, quldan” və sair *(Bax: Elə orada, səh. 429).* Müəyyən olunduğu kimi, yeni olayın başlanılmasını vəd edən bu cür kəlmələr ənənəvi olaraq işlənib hazırlanmış ədəbi trafaret idi. Riyakarlığı ilə, xəyanətkarlığı ilə, dələduzluğu ilə Koroğlunu aldatmağa cəhd edən Əhməd tacirbaşının sonrası çox maraqlı görünür.

Halbuki Çənlibelin səmasını bürüyən qara bulud yenə də və yenə də Koroğlunun inadkarlığından irəli gəlir. Bir dəfə dediyi sözün üstündə durur və o, bir növ inanan, genişqəlbli, rəhmlidir, bağışlayandır. İnama layiq olmayan, çətinliyə düşən insalı əl ilə itələyə bilmir və nə də özündən uzaqlaşdırmır. Elə burada bir cizgi də diqqətə layiqdir. Koroğlu insanın igidliyini və yararlılığını poetik sözü və mahnını necə qavramasına uyğun olaraq yoxlayır. Bu da ki, onun inancından və baxış dairəsindən xəbər verir. Belə dəyərləndirmək mümkümdür. Kimin gözəlliyi dərk etmək qabiliyyəti və məharəti yoxdursa və yaxud kim ki, anti-estetikdir, o, anti-etikdir və əxlaqsızdır ki, bu da Orta əsrlərin dünyagörüşü ilə sistemdə estetik və əxlaqi identik düşüncəni bizə bir daha göstərir.

Elə bu dastanda eləcə də gələcəyin şər və xeyir işindən xəbər verən yuxunun funksiyası və əhəmiyyəti irəli çəkilmişdir. Bu boy eləcə də aşıq repertuarı ilə zəngindir ki, bunun barəsində də başqa yerdə söhbətimiz olacaq.

**On birinci boy.** Bu boy əvvəlki dastanda verilən hadisənin davamıdır. Hasan paşaya gedən yolun dəlilər tərəfindən bağlı olduğunu fikirləşən qul yolu dəyişdirdi. Birbaş bir varlı-karlı, dövlətli və eyni zamanda atbaz olan Ələmqulu xanın yanına sürdü. İlxısında dünyada olan atların hər rəngindən, hər yaşarından bir cüt var idi. Lakin qulun atına, Ərəbata baxanda gözü aldı. Bu atın əvəzində qulun bütün şərtlərinə razılaşdı. Qulun şərti bu idi ki, Hasan paşanın yanına qasid göndərsin və bütün bunları yazılı tanış eləsin. Eləcə də hərəkət etdi.

Lakin qulu tutmaq üçün yola çıxan üç dəli: Dəmirçioğlu, Gürcüoğlu, Tanrıtanımaz yolda qasidi ələ keçirdilər. və Ələmqulu xana ismarıc göndərdilər: Bizim atı və qulu da geri qaytar, əmin-amanlıqla bir-birimizdən aralaşaq. Lakin Ələmqulu xan qoşunla hücuma keçdi. Dəlilər qılınc çəkməyə məcbur oldular və düşmən qoşununun yarısından çoxunu qırdılar. Bu ərəfədə axşam da düşdü. Ələmqulu xanın qalan qoşunu şəhərə doldu, dəlilər isə məqsədlərinə çatmaq üçün tədbir tökürdülər. Nəhayət, Tanrıtanımazın fikrinin üzərində dayandılar: Ələmqulu xanın “Gözləmə dərəsində” otlayan ilxısını tutaq və xana ismarıc göndərək, ya qulu, atı versin, ya da bütün ilxını haylayıb aparacağıq.

Ələmqulu xan bu sözü ilxıçıdan eşitcək, əl-ayağı yerdən üzüldü. Öz ağıllı və gözəl qızı Ruqiyyə xanımı yanına çağırtdırdı. Necə davranmalı olduğunu ondan soruşdu. Ruqiyə xanım ağıllı yol göstərdi, lakin, ən başlıcası, özü bu planın həyata keçirilməsinə fəal şəkildə qatıldı. Özü başının adamları ilə dəlilərin yanına getdi və xanın dəvətini ona çatdırdı.

Lakin dəlilər bir razılığa gələnə kimi onun qənirsiz gözəlliyi dəlilərdən birinin, o cümlədən Gürcüoğlunun ağlını başından aldı. Bax, Dəmirçioğluya o nə deyir: “Koroğluya məndən salam yetirərsən. Deyərsən ki, Gürcüoğlu Məmməd oldu eşq dəlisi. Day ondan Koroğlu dəlisi çıxmaz. Məndən ümidini üzsün. Mən dönüb oluram Məcnun. Boynuma da bir zəncir bağlayacağam, ucunu da verəcəyən bu qızın əlinə. Hara çəkər özü bilər” *(Bax: Elə orada, səh. 457).*

Qısası, şam kimi şölə saçan və çıraq kimi işıq salan Ruqiyə bir baxışdan Gürcüoğlunu ağlını itirən Məcnuna çevirdi. Belə ki, o, ixtiyarını əldən verir, özünü məşuqa etibar edir. Ümumiyyətlə, Şərq ədəbiyyatında yaradılan aşiqin, daha doğrusu, Məcnunun siması belədir. Ürəyi də tamamilə sevgi ilə zəbt olunan Gürcüoğlunun təbiəti belə imiş. Təbii ki, divanə dəli Koroğluya dəli kimi yararlı olmazdı. Buna görə də onun etirafı da səmimi və zərifdir.

Halbuki dəlilər Ruqiyə xanıma bir şərt də irəli sürdülər: Qulu da, atı da gətirib burada verməli olduğunu, onlardan biri də bunları tez Koroğluya çatdırmalı olduğunu, ikisi də xanın hüzuruna gedəcəklərini bildirdilər. Bu şərt də yerinə yetirildi: Tanrıtanımaz atı və qulu da götürərək Çənlibelə yollandı. Gürcüoğlu və Dəmirçioğlu xana qonaq getdilər. Onlara böyük hörmət-izzət göstərdilər, gözəl məclis təşkil etdilər. Lakin aşiq olmuş Gürcüoğlu getmək məqamı ayağını sürüdü, məhəbbətin odu düşdü qəlbinə, qızdan üzülə bilmədi. Və buna qoşulan dəlilər gecikdilər, verilən vədəyə Çənlibelə gedə bilmədilər... Koroğlu isə düşündü ki, xan paşaların, bəylərin adət etdiyi kimi namərdlik etdi, onun silahdaşlarını tora saldı. Buna görə də dəlilər Ələmqulu xanın şəhərini mühasirəyə aldılar. Halbuki tezcə məlum oldu ki, iş nə yerdədir və xan Koroğlunu və dəliləri qonaq elədi, böyük bir ziyafət təşkil etdi. Sonda yenə Koroğlu öz boynuna götürdü və Ələmqulu xanın qızı Ruqiyəni Gürcüoğlu üçün istədi. Xan da sevinclə bunu qarşıladı və toy tədarükü başladı. Üç günün üstünə bir dörd gün də gəldilər. Yeddi günün tamamında gəlini bəyə tapşırmaq üçün gətirdilər, lakin Koroğlu razılaşmadı. Dəlilərin, xanımların anası Nigar xanım xeyir-duasını verməyincə istəyinə qoşula bilməzdi. Toy Çənlibeldə də davam etdi. Orada yüksələn əhval-ruhiyyəni Koroğlu sazla çalıb-oxuyub tərənnüm etdi.

Bu dastanda da kimdən ağıl öyrənilirsə o, Ruqiyə xanımdır. Müəyyən olunur ki, bu qəhrəmanlıq eposunda qadının dolğun obrazının təsvir olunması üçün yalnız gözəllik bəs eləmir və onun gözəlliyindən başqa ağlı da gözəlləşdirməlidir. Lakin konkret halda ata qızını onun rəyini soruşmadan ərə verir ki, bu da müsəlmanların məişət və həyatında adi ənənəyə-qaydaya çevrilmişdir.

Bir epizod da diqqətə layiqdir: Koroğlu bilirdi ki, onun dəlilərinin gecikməsi Gürcüoğlunun üzündən idi. Lakin o, bilərəkdən Dəmirçioğlunu düzünü dedirtməyə bir neçə dəfə cəhd göstərir, halbuki bu sonuncu dostunu ələ verməyir, bu da Koroğluya xoşdur və onu belə dəyərləndirir: “Mərhəba! Mən səni qəsdən sınayırdım. Sağ ol!” *(Bax: Elə orada, səh. 463).*

Daha bir cizgi səciyyəvidir: Bəylə gəlinə Nigar xanım xeyir-duasını verməyincə birgə yatmağa ixtiyarları yox idi. Bu, bir daha ondan xəbər verir ki, hər şeydən öncə ana və ata razı olmalı idilər və onlar bəylə gəlinə xeyir-dua verməli idilər və ikincisi, müəyyən olunur ki, Nigar xanım Çənlibelin sakinləri tərəfindən ümumxalq ana kimi qəbul edilib.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN
2023-CÜ İL
№ 011 (182)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# KƏRƏM MƏMMƏDOV DÜNYASINI DƏYİŞİB



Bakı Dövlət Universitetinin Tarix fakültəsinin “Arxeologiya və etnoqrafiya” kafedrasının müdiri, dosent, tanınmış tarixçi alim, əməkdar müəllim Kərəm Məmmədov iyunun 10-da ürək tutmasından dünyasını dəyişib.

Kərəm Məmmədov 1965-ci il fevral ayının 22-də Gürcüstanın Dmanisi rayonunun Gəyliyən kəndində anadan olub. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsinə qəbul olunub. 1983-1985-ci illərdə Əfqanıstan Respublikasında hərbi xidmətdə olub. 1990-cı ildə Leninqrad Dövlət Universitetində tarix fakültəsinin “Antropologiya və etnoqrafiya” ixtisasını fərqlənmə diplomu ilə bitirib. 1995-ci ildən Bakı Dövlət Universitetinin tarix fakültəsində çalışıb, Azərbaycan və rus bölmələrində “Antropologiya”, “Qafqaz xalqlarının antropologiyası”, “Qafqaz xalqlarının etnoqrafiyası”, “Etnoqrafiya”, “Ermənilərin tarixi”, “Gürcüstan tarixi”, “Antropometriya” fənlərini tədris edib. O, “Antropologiyanın əsasları” və “Qafqaz xalqlarının etnoqrafiyası” dərsliklərinin müəllifidir.

1996-cı ildə “İslamaqədərki Azərbaycanda dini inanclar” mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Elmi və pedaqoji fəaliyyəti 100-ə qədər elmi əsərdə öz əksini tapıb.

Kərəm Məmmədov 2019-cu ilin aprelində Bakı Dövlət Universitetinin Tarix fakültəsinin arxeologiya və etnoqrafiya kafedrasının müdiri vəzifəsinə seçilib, həmin il “Əməkdar müəllim” adını alıb.

# 2023-CÜ İLDƏ KVEMO KARTLİDƏ 15 YENİ UŞAQ BAĞÇASI TİKİLƏCƏK




2023-cü ildə Kvemo-Kartli bölgəsində 15 yeni uşaq bağçasının tikintisi, 8 bağçanın isə əsaslı təmiri planlaşdırılır. Bu haqda Kvemo Kartli Regional Administrasiyası məlumat yayıb.

Məlumatda bildirilir ki, Kvemo Kartli bölgəsi üzrə tikilməsi planlaşdırılan uşaq bağçaları aşağıdakı məntəqələrdə nəzərdə tutulub:

- Marneuli şəhərində 1, Tsereteli kəndində 1 və Şulaveri kəndində 1 yeni uşaq bağçası tikiləcək;
- Bolnisinin Kazreti qəsəbəsində 1 və Mamxuti (Saraçlı) kəndində 1 yeni uşaq bağçası tikiləcək;
- Dmanisinin Hamamlı kəndində 1 və Yırğançay kəndində 1 yeni uşaq bağçası tikiləcək;
- Qardabaninin Martğopi kəndində 1 və Sarticala kəndində 1 yeni uşaq bağçası tikiləcək;
- Tsalkanın Tialeti kəndində 1 və Kabuli kəndində 1 yeni uşaq bağçası tikiləcək;
- Tetritsqaronun Vaşlovani kəndində 1 və Orbeti kəndində 1 yeni uşaq bağçası tikiləcək;
- Rustavi şəhərində 2 yeni uşaq bağçası tikiləcək.

Təmirə gəldikdə isə, 2023-cü ildə Rustavinin 23 saylı, Bolnisinin Tandzia və Kvemo Bolnisi kənd bağçaları, Qardabaninin Lemşveniera və Mzianeti kənd bağçaları, Dmanisinin 1 saylı, Tetritskaronun 1 saylı və Marneulinin 4 saylı uşaq bağçaları təmir olunacaq.

# GÜRCÜSTAN MİLLİ ELMLƏR AKADEMİYASINA YENİ PREZİDENT SEÇİLİB



Iyunun 7-də Gürcüstanın Milli Elmlər Akademiyasının (GMEA) toplantısı keçirilib. Toplantıda akademiyanın qarşısında duran məsələlər və perspektiv layihələr müzakirə olunub, təşkilatı məsələyə baxılıb.

GMEA-nın ümumi yığıncağında 2013-cü ildən akademiyanın prezident vəzifəsində çalışan Giorgi Kvesitadze səlahiyyətlərinin başa çatdığını bildirib. Sonra GMEA-nın vitse-prezidenti, tarixçi alim, ictimai xadim Roin Metreveli akademiyanın yeni prezidenti seçilib.

Qeyd edək ki, Roin Metreveli uzun müddət İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin rektoru olub. O, 1993-cü ildən GMEA-nın həqiqi üzvü seçilib, 2013-cü ildən isə vitse-prezidenti kimi çalışıb.

# GÜRCÜSTAN İQTİSADİYYATINA QOYULAN BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN HƏCMİ ARTIB



Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, cari ilin birinci rübündə Gürcüstan iqtisadiyyatına 496,6 milyon dollar həcmində birbaşa xarici investisiya qoyulub.

Məlumatda bildirilir ki, birinci rübdə Gürcüstana yatırılan birbaşa xarici investisiyaların həcmi 2022-ci ilin birinci rübünün göstəriciləri ilə müqayisədə 13,7 faiz az, həmin ilin dördüncü rübünün göstəricilərindən isə 53,3 faiz çoxdur.

Hesablamalara görə, 2023-cü ilin birinci rübündə Gürcüstan iqtisadiyyatına ən çox investisiya yatıran ölkə Hollandiya olub – 239,6 milyon dollar.

İkinci yerdə 63,2 milyon dollarlıq sərmayə ilə Yaponiya, üçüncü yerdə isə 54,7 milyon dollarla Amerika Birləşmiş Ştatları gəlir.

Hesabat dövründə ən böyük birbaşa xarici investisiya emal sənayesi sektoruna qoyulub ki, bu rəqəm 226,3 milyon dollardır. Bu da ümumi birbaşa xarici investisiyaların 45,6 faizini təşkil edir.

İkinci yerdə ticarət sektoru – 90,7 milyon ABŞ dolları, üçüncü yerdə isə 43,3 milyon dollarla nəqliyyat sektoru gəlir.

# ÖLKƏNİN SƏRHƏD-KEÇİD MƏNTƏQƏLƏRİNDƏ ÜZTANIMA SİSTEMLƏRİ QURAŞDIRILACAQ



Gürcüstan hökuməti öz sərhəd-keçid məntəqələrində üztanıma sistemlərinin inteqrasiyasını bu ilin sonunadək tamamlayacaq. Bu haqda məlumat Gürcüstan hökumətinin parlamentə təqdim edilmiş illik hesabatında yer alıb.

Bildirilib ki, layihə çərçivəsində sərhəd-buraxılış məntəqələrində lazım olan texniki vasitələrin və proqramların quraşdırılması 2023-cü ilin sonunadək başa çatdırılacaq.

Tətbiq olunacaq yeni sistem ölkəyə daxil olan, həmçinin ölkədən çıxan şəxslərin axtarışda olmasını, deportasiya edilmiş və ya saxta sənədlərlə səyahət etməsini müəyyənləşdirməyə imkan verəcək.

Layihə hazırda sınaq mərhələsindədir və müvafiq satınalma və quraşdırma mərhələsinə keçiləcək.

Hesabatda qeyd edilir ki, bu sistemlər ölkənin sərhəd təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasında mühüm rol oynayacaq.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həftəlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.